*AMEA Filologiya və sənətşünaslıq, 2023, № 2* *ISSN 2663-4368*
*Səhifə: 322-330* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2023.2.322*

# AZƏRBAYCAN RƏSSAMLARININ YARADICILIĞINDA BEYNƏLXALQ DİLDƏ DANIŞAN "SÖZSÜZ" KARİKATURALAR

**Kəmalə Mustafayeva**
Azərbaycan Dövlət Rəssamlıq Akademiyası. Azərbaycan.
E-mail: kamalamustafazadeh@gmail.com

**Annotasiya.** Məqalədə rəssamlarımızın yüksək peşəkarlıqla işləyib hazırladığı beynəlxalq dildə danışan "sözsüz" karikaturalar araşdırılır, karikaturaların tənqid obyekti, süjet xətti əsasında çıxarılan məntiqi nəticələr təhlil olunur. Yeni və müasir cərəyan olan, beynəlxalq dildə danışan, əsasən, hazırlıqlı oxucu üçün nəzərdə tutulmuş "sözsüz" karikaturaların Azərbaycan rəssamlarının yaradıcılığında yeri və mahiyyətindən bəhs olunur. Məqalədə karikaturaçı rəssamların respublika dövri mətbuatında dərc edilmiş, eləcə də beynəlxalq karikatura müsabiqələrində və sərgilərdə nümayiş olunmuş "sözsüz" karikaturalarının mövzu müxtəlifliyindən və rəngarəngliyindən bəhs edilir. Rəssamların cəmiyyətdə mövcud olan əyintilərin, çeşidli problemlərin işıqlandırılması istiqamətində səmərəli fəaliyyəti qeyd olunur. Məqalədə rəssamların çoxşaxəli yaradıcılığı, müxtəlif dövrlərdə işləyib hazırladıqları "sözsüz" karikaturaları, müxtəlif mövzulu satirik rəsmləri müqayisəli təhlil olunur.
**Açar sözlər:** karikatura, rəssam, qrotesk, yaradıcılıq, cərəyan, satira, yumor, beynəlxalq

**Məqalə tarixçəsi:** göndərilib – 14.06.2023; qəbul edilib – 28.06.2023

# "WORDLESS" CARICATURES CREATED BY AZERBAIJAN ARTISTS SPEAKING IN AN INTERNATIONAL LANGUAGE

**Kamala Mustafayeva**
Azerbaijan State Art Academy. Azerbaijan.
E-mail: kamalamustafazadeh@gmail.com

**Abstract.** The "wordless" caricatures that speak the international language developed by our artists with high professionalism are examined, the object of criticism of the caricatures, the logical conclusions drawn based on the plot line are analyzed. The place and essence of "wordless" caricatures in the creativity of Azerbaijani artists, which are a new and modern trend, speaking in an international language, and intended mainly for the prepared reader, are discussed. The article talks about the diversity and variety of themes of caricaturists' "wordless" caricatures published in republican periodicals, as well as exhibited in international caricature contests and exhibitions. The effective activity of the artists in the direction of highlighting the problems and various problems existing in the society is noted. In the article, the multifaceted creativity of the artists, their "wordless" caricatures and satirical paintings with different themes are analyzed in comparison.
**Keywords:** caricature, artist, grotesque, creativity, trend, satire, humor, international

**Article history:** received – 14.06.2023; accepted − 28.06.2023

## Giriş / *Introduction*

Bir əsrdən çox tarixi olan Azərbaycan karikatura sənətini yaşadan, bu nadir sənətə xidmət edən rəssamlarımız bütün dövrlərdə ölkənin, cəmiyyətin ictimai-siyasi və mədəni həyatının ümumi mənzərəsini əhatəli və çoxcəhətli planda təsvir edən dəyərli əsərlərə imza atmışlar. Yaradıcılıq axtarışları prosesində bədii yetkinlik mərhələsinə çatmış karikatura ustalarımızın böyük ictimai-tərbiyəvi məzmuna, emosional təsir qüvvəsinə, ifadə estetikasına, milli koloritə malik olan müasir ruhlu əsərləri onların davamlı axtarışlarının, gərgin və məhsuldar əməyinin nəticəsi kimi qiymətlidir.

Müasir dövrdə Azərbaycan karikaturasının inkişafında milliliklə bərabər, mütərəqqi dünya karikaturasının təsirini aydın görmək olar. Müasir dövrün nailiyyətlərindən bəhrələnən, milli ənənələrə əsaslanan rəssamlarımızın əsərlərində klassik üslub xüsusiyyətlərinin müasirləşdirilməsi, mövzu seçimində və problemə yanaşmada yeniləşmə meyli ilk baxışdan özünü büruzə verir. Son illər yeni inkişaf mərhələsinə qədəm qoymuş Azərbaycan karikaturası müasir dünya karikaturası çərçivəsində inkişaf etmiş, rəssamlarımız bu inkişaf istiqamətlərində real həyatdan doğan, beynəlxalq dildə danışan "sözsüz" karikaturaları ilə dünya karikaturasına dəyərli töhfələr vermişdir.

## Əsas hissə / *Main Part*

Özünün mövzu müxtəlifliyi, üslub zənginliyi ilə yaddaqalan müasir dövr karikaturası haqqında danışarkən, qeyd etmək lazımdır ki, məhz bu dövrdə, daha dəqiq desək, Azərbaycan müstəqillik qazandıqdan sonra "sözsüz" karikatura adlandırdığımız, beynəlxalq dildə danışan karikaturalara maraq daha da artmışdır. Mətbuat karikaturası adlandırdığımız, süjet xətti əsasən iki nəfərin dialoqu üzərində qurulmuş, müşayiətedici mətnlə təqdim olunan karikaturalarla yanaşı, dövri mətbuat səhifələrində zaman-zaman "sözsüz" karikaturalara rast gəlmək olardı. Bu gün "Sözsüz" karikatura kimi tanınan, mətnsiz başa düşülən bu tip rəsmlər yeni cərəyan kimi əvvəlcə Avropada, 60-cı illərin əvvəllərində isə artıq sovet-rus mətbuatında yayılmağa başlamışdır. "Sözsüz" karikaturanın yaranması, cəmiyyətdə tanınması və populyarlaşması prosesi, yeni cərəyanın vacibliyi və əhəmiyyəti haqqında müxtəlif fikir və mövqelər vardır.

Bu haqda "Без слов" kitabında R.Tumanovski yazır: "Yaradıcı insan üçün bu gün geniş oxucu-tamaşaçı kütləsi ilə ünsiyyət yaratmaq, onu heyrətləndirmək və inandırmaq heç də asan deyildir. Müasir dövrdə müstəqil və azad fikirlər fonunda söz artıq adiləşir və öz kəsərini itirir. Bu mürəkkəb şəraitdə müəllif hər bir insanın gündəlik həyatda rastlaşdığı adi hadisələri hamımıza məlum olan adi, ənənəvi üsullarla yox, daha yeni və orijinal vasitələrlə öz tamaşaçısına çatdırmalıdır. Heç də təsadüfi deyildir ki, bu gün müasir yaradıcı insan öz fikrini ancaq adi sözlərlə ifadə etmir, o, öz ideyasını çatdırmaq üçün yeni vasitələrdən – musiqidən, riyazi formullardan, memarlıq konsepsiyalarından və əlbəttə, təsviri sənətin bütün imkanlarından istifadə edir. Bütün bunlar sözsüz çatdırılan fikirlər, orijinal yanaşmalar, ideyalar, insanlarla ünsiyyət yaratmaq istiqamətində edilən cəhdlər və arzulardır" [14, s.3].

Həqiqətən də belədir. Sözsüz çatdırılan fikirlər, orijinal yanaşmalar, yeni idealar tələb edən "sözsüz" karikatura XX əsrin 60-cı illərində Azərbaycan rəssamlarının yaradıcılığında artıq önəmli yerlərdən birini tuturdu. Qeyd etmək lazımdır ki, yeni cərəyan adlandırdığımız bu tip rəsmlərə, əslində, daha əvvəlki dövrlərdə rəssamlarımızın yaradıcılığında rast gəlmək olardı. "Hələ XX əsrin əvvəlləri "Molla Nəsrəddin" (1906-1931), "Zənbur" (1909-1910), "Cigit" (1907-1918), "Biç" (1909-1916) və digər satirik jurnallarda ara-sıra "sözsüz" karikaturalar dərc edilirdi" [6, s.34; 7, s.266] (şək.1).

Bu haqda professor B.Hacızadənin "Kirpi"nin rəssamları" adlı kitabında oxuyuruq: "XX əsrin əvvəllərində Azərbaycan satirik mətbuatında ara-sıra dərc edilən, əsasən, hazırlıqlı oxucu üçün nəzərdə tutulmuş "sözsüz" karika-

turalar, o illər geniş tamaşaçı-oxucu kütləsi tərəfindən qəbul olunmamış, cəmiyyətdə populyarlıq qazana bilməmişdir. Əlbəttə, "sözlü" karikatura adlandırılan mətbuat karikaturası geniş kütlə tərəfindən daha asan qavranıldığından, daha asan başa düşüldüyündən ilk gündən xalq kütlələri arasında rəğbət və populyarlıq qazanmışdır. Sovet dövri mətbuatında, xüsusilə də 60-cı illərdən sonra mütəmadi olaraq "sözlü" karikaturalarla yanaşı, "beynəlxalq dil"də danışan "sözsüz" karikaturalara da yer verilirdi. Bu tip karikaturalar respublikada dərc olunan "Kommunist", "Ədəbiyyat və incəsənət", "Bakı", "Baku", "Бакинский рабочий", "Вышка", "Azərbaycan gəncləri" qəzetlərində və "Kirpi" satirik jurnalının səhifələrində davamlı olaraq dərc olunurdu. Həmin dövrdə Azərbaycan mətbuatında dərc olunmuş ilk "sözsüz" karikaturaların müəllifləri Nəcəfqulu İsmayılov, Pyotr Şandin, Vsevolod Tatarinsev, Faiq Əliyev, Aleksandr Anisimov, daha sonrakı illərdə isə Qərib İdrisov, Yavər Əsədov, Nazim Seyidbəyli, Bulud Qasımov və digər rəssamlarımız olmuşdur" [7, s.271].

"Kirpi" satirik jurnalı nəşrə başladığı ilk gündən, jurnalın baş rəssamı vəzifəsində çalışmış Nəcəfqulu İsmayılovun "Sözsüz" karikaturalarının populyarlıq qazanmasında və yeni cərəyan kimi inkişafında əvəzsiz xidmətlərini və səmərəli fəaliyyətini yüksək qiymətləndirən professor B.Hacızadə yazır: "Həmin illərdə "Kirpi" jurnalının səhifələrində dərc olunmuş ilk "sözsüz" karikaturaların müəllifi kimi tanınmış və şöhrət qazanmış Nəcəfqulu İsmayılovun yaradıcılığını xüsusilə qeyd etmək doğru olardı. Nəcəfqulunun 1960-cı ildə böyük peşəkarlıqla işləyib hazırladığı "Nə gözəl şəkildir, elə bil lap canlıdır", "İtini bəzər, özü lüt gəzər", "Gəzinti", "Marseldə "azad" güləşmə", "İtalyan makaronu", "Utancaq fotoqraf", "İsti yuva" kimi karikaturaları bu sahədə atılmış ilk uğurlu addımlar kimi qiymətləndirilməlidir" [7, s.271; 13, s.38; 4, s.51] (şək.2).

Nəcəfqulu İsmayılovun 1964-cü ildə jurnalın 17-ci nömrəsində dərc olunmuş "Axır ki, ümumi dil tapdıq" adlı əsəri yeni cərəyan adlandırdığımız "sözsüz" karikaturalardandır [10, s1; 5, s.27]. Bu karikatura 60-cı illərdə ölkədə mövcud olan ciddi problemlərdən biri olan, rüşvət və qanunsuz gəlirlərlə mübarizəyə yönəlmişdir. Bu illər, bütün sovetlər ittifaqında olduğu kimi, respublikamızda da bu "xəstəliyə" qarşı müxtəlif yollarla mübarizə aparılırdı. Təsadüfi deyil ki, "Kirpi"nin rəssamları da bu bəlaya qarşı mübarizədə ön mövqelərdə dururdular. Bütün yaradıcılığı boyu cəmiyyətdə müşahidə olunan eybəcərlikləri bütün çılpaqlığı ilə gündəmə gətirən N.İsmayılov bu karikaturasında da oxucunun diqqətini bu ağrılı problemə yönəltməyə nail olmuşdur. Mövzunun aktuallığı və kompozisiya quruluşunun orijinallığı ilə seçilən bu "sözsüz" karikaturada rəssam rüşvət verilməsi səhnəsini özünəməxsus tərzdə təsvir etmişdir (şək.3).

Rəssam N.İsmayılov metafora məntiqindən çıxış edərək, pul kisəsinin funksional əhəmiyyəti ilə rüşvətxorun xarakterik cizgiləri arasında ümumi oxşar cəhəti görə bilmişdir. Karikaturaçı öz rüşvətxor personajının ağzını pul kisəsi şəklində göstərərək, ona rüşvət verilməsini pulun bir kisədən başqasına keçməsi kimi obrazlı şəkildə həll etmişdir. Təsvir olunmuş hər iki obraz üçün ümumiləşdirilmiş oxşar cəhətləri xüsusi vurğulayan rəssam bu karikaturada gülüşü qrotesk həddinə çatdırmaqla dərin fikri lakonik tərzdə ifadə etməyə nail olmuşdur. Qeyd etmək lazımdır ki, fiqurların şərti modelləşməsi, cizgilərin kəskin dönüşləri karikaturanın şərtiliyini daha da artırır. "Qəhrəman"ların hər ikisinin ağzının eyni pul kisəsi şəklində işlənməsi, başqa sözlə, obrazların zahiri oxşarlığı onların mahiyyətcə də çox yaxın olduğuna işarədir. Karikaturanın ideyasının ifadəli şəkildə həll edilməsi rəssamın mövzuya fərdi münasibətinin məntiqi nəticəsidir. Nəcəfqulu, hər iki personajın başını yarımdönüşdə işləyərək, pulun bir "ağızdan" başqasına maneəsiz keçməsi faktının məcazi mənasını real şəkildə təsvir etmişdir.

Ümumiyyətlə, karikatura tarixində müəyyən obrazları müxtəlif əşyaların funksional cəhətlərindən istifadə etməklə, formaca həmin əşyalara bənzətmək üsulu geniş yayılmışdır. Bu karikaturada isə rəssam cəmiyyətdə baş verən neqativ halı ümumiləşdirərək, onu tamaşaçıya tamamilə başqa aspektdən, lakin olduqca tanış rakursdan təqdim etmişdir. Əsərin ən böyük üstünlüyü və uğuru isə tamaşaçının onu müşayiətedici mətn olmadan, yəni "sözsüz" başa düşə bilməsindədir.

Haqqında danışdığımız dövrdə respublika mətbuatında, xüsusilə də "Kirpi" satirik jurnalında "mətbuat karikaturası" kimi tanıdığımız "Sözlü" karikaturalarla yanası, yumorla aşılanmış "sözsüz" karikaturalar da davamlı olaraq dərc olunurdu. Jurnalın oxucuları tərəfindən maraqla qarşılanan bu karikaturalar jurnalın iç və ya arxa səhifələrində yerləşdirilirdi. Jurnalın son səhifələrində mütəmadi olaraq "Ordan-burdan", "Quru həftəbecər", "Sulu həftəbecər", "Bahar mənzərəsi", "Cənub günəşi altında", "İdman həvəskarları üçün", "Payız təbəssümləri", "Yay təbəssümü", "8 mart" kimi başlıqlar altında "sözsüz" karikaturalar oxucuların diqqətinə təqdim olunurdu. Oxucuda təbəssüm doğuran, yumorla, zarafatyana çəkilmiş P.Şandinin "Bəzən belə də olur", "Ölçü götürüldü", "Qarınların görüşü", "Saxla, kolleqa!", "Dənizçi pivələndi, köynəyi ləpələndi", A.Quliyevin "Mən və mənim yarım", "Vəzifə sahibi", "Zaporojes" maşınının üstünlüyü", V.Tatarinsevin "Müdirim istirahət edir", "Fasilə zamanı", "Öz işinin "ustası", Ə.Zeynalovun "Üzgüçü", "Güzgü", "Müdirin səhər idmanı", M.İsmayılovun "Turizm mövsümü başlandı", "Dükan", "Kinoteatrda", F.Əliyevin "Xüsusi çarpayı", "Sevgi", A.Anisimovun "Rənglənib!", "İlanlar", "Şəxsi kitabxana", "Kompliment", Z.Kərimbəylinin "Hər ehtimala qarşı", "Bağban", "Kömək edin", N.Əfəndiyevin "Sərxoşun kəşfi", "Lövbər", "Buyurun, əyləşın", "Yanğınsöndürənlər", Y.Ağayevin "Avtobusda", "Kitab oxuyan qız", M.Ağayevanın "Küsdülər və kəsdilər", "Adətkərdə" və digər karikaturaları sətiraltı mənanı çatdırmaq üçün istifadə olunan incə yumoru, tənqidedici gülüşü, lokal rəng seçimi ilə diqqət çəkir. Daim yenilik axtarışında olan rəssamlarımızın müasir dövrlə səsləşən, yüksək sənətkarlıq səviyyəsi ilə seçilən yeni ruhlu əsərləri bu gün də öz aktuallığını qoruyub saxlamışdır (şək.4).

Müasir cərəyan olan, beynəlxalq dildə danışan, əsasən, hazırlıqlı oxucu üçün nəzərdə tutulmuş "sözsüz" karikaturalar artıq 1970-80-cı illərdə yeni mərhələyə qədəm qoymuşdur. Rəssamlarımızdan yüksək peşəkarlıq, tamaşaçıdan isə xüsusi hazırlıq tələb edən "sözsüz" karikaturalar o illər artıq özünün geniş oxucu-tamaşaçı kütləsini tapmışdır. Bu istiqamətdə davamlı olaraq çalışan, "Kirpi" jurnalının oxucularını özlərinin yeni-yeni əsərləri ilə sevindirən, onlarda yüksək zövq formalaşdıran rəssamlarımızdan P.Şandin, Q.İdrisov, Ə.Zeynalov, V.Tatarinsev, B.Danilenko, Ç.Ağayev, A.Anisimov, A.Alyoşiçev, M.Məmmədov, Y.Əsədov, M.Səyyad, S.Talıbov, S.Hicran, B.Qasımov, B.Hacızadə, E.Mirzəyev, N.Seyidbəyli və digərlərinin yaradıcılığı və fəaliyyəti diqqətəlayiqdir.

Araşdırdığımız dövrdə "Kirpi" jurnalının iç və ya arxa səhifələrində dərc edilmiş, duzlu satira və incə yumorla aşılanmış "sözsüz" karikaturalar insanları sözün əsl mənasında güldürür və düşündürürdü. P.Şandinin "Rəssam", "Nəyi isə çatmır", "Bulvarda", Q.İdrisovun "Hücumçu", "Arzu hədəfi", "Foksçu", "Utancaq qız", Ə.Zeynalovun "İsti kabab", "Su aparatı", V.Tatarinsevin "Turist", "İdman dərmandır", "Avtoqraf", B.Danilenkonın "Asfalt çəkənlər", "Musiqiçi", "Təmizlik", "Futbolçular", Ç.Ağayevin "Start", "Yeni ildə", "Pivə həvəskarı", "Qoca qadın", A.Anisimovun "Aeradrom", "Dayanacaqda", "Tutuquşu", A.Alyeşeviçin "Çimərlikdə", "Müdirin mənzili", "Xüsusi üsul", M.Məmmədovun "Balıqçı", "İmzasız məktub", "Roman", Y.Əsədovun "Startda", "Musiqiçi", "Əməliyat", M.Səyyadın "Sərgidə", "Ticarətçi", S.Talıbovun "Aşpaz", "Lift işləməyəndə", S.Hicranın "Yeni il", "İclasdan sonra", "Kəsmə şikəstə", "Təmir", B.Qasımovun "Qənaət", "Kitaba maraq", "Dayanacaqda", B.Hacızadənin "Siqnal", "Sirk ustası", "Vəzifə", E.Mirzəyevin "Sirkdə", "Ürəklər", "Piyada keçidi", "Televizor önündə", N.Seyidbəylinin "Tülkü və qarğa", "Ağır çəki", "Baltaçı", "Hədəf" və digər bu kimi satirik və yumoristik rəsmləri, ideya, məzmun və sətiraltı mənanın oxucu üçün aydınlığı ilə seçilir (şək.5).

Orijinal yanaşma tərzi, rəssam tapıntısı, mövzu müxtəlifliyi, bədii təsvir vasitələrinin rəngarəngliyi karikatura sənətini səciyyələndirən mühüm cəhətlərdən biridir. Gündəlik həyat hadisələrində adi insanların görə bilmədiyi məqamları görmək keyfiyyəti, eləcə də güclü müşahidə qabiliyyəti karikaturaçı rəssamlara xas keyfiyyətlərdəndir. Bu nadir keyfiyyətlərlə yanaşı, karikaturaçı rəssamın ətrafda baş verən hadisələri tamamilə fərqli rakursdan görmək və təqdim etmək qabiliyyətinin də olması mütləqdir. Özündə bütün bu keyfiyyətləri birləşdirən

karikaturaçılarımız öz yaradıcılıq imkanlarını genişləndirərək, dövri mətbuat səhifələrində, eləcə də müsabiqə və sərgilərdə mütəmadi olaraq yeni ruhlu rəsmləri ilə çıxış etmişlər.

Azərbaycan müstəqillik qazandıqdan sonra, bütün sahələrdə olduğu kimi, təsviri sənətin ən çevik və mübariz qolu olan karikatura sahəsində də yeniləşmə, problemə yanaşmada, üslub və mövzu seçimində sərbəstlik, orijinallıq və müasirlik aydın hiss olunurdu. Öz yaradıcılığında dünyada və ölkəmizdə baş verən hadisələrə, torpaqlarımızın işğalı, təcavüz, respublikada gedən siyasi oyunlara, mövcud nöqsanlara və digər bu kimi problemlərin işıqlandırılmasına geniş yer verən rəssamlarımız müasir dünya karikatura ənənələri ilə səsləşən, beynəlxalq dildə danışan, bir-birindən maraqlı və orijinal əsərlər yaratmışlar.

Müstəqillik dövrünün ilk illərindən rəssamlarımızın bədii dəyəri və ifadə vasitələrinin zənginliyi ilə yaddaqalan karikaturaları dəqiq mövzu seçimi, süjet xətti, mətnaltı fikrin aydınlığı, eləcə də eyham və təşbehin çoxcəhətliyi baxımından maraq doğurur. Y.Əsədovun “Demokratiya”, “Milli məclisdə” , “Yer yoxdur”, “Silah dükanında”, V.Cəfərovanın “Təqdimat”, “Maskalar”, “Arzu”, “Gec gələndə”, G.Əlizadənin “Perestroyka”, “Təhlükə”, “İqtisadiyyat”, B. Hacızadənin “Erməni mafiyası”, “Koroğlu”, “Dərs vaxtı”, “Yaltaqlar”, “Giriş qadağandır”, “Turistlər”, R.Şərifin “Sarı mətbuat”, “Əməliyyat”, “Zaman”, H.Nəsiroğlunun “Mühafizə”, “Mətbuat”, “Bom-boş”, S.Cəfərlinin “Tülkü həccə gedir”, “Güdrətli əl”, “Məruzə”, T.Məmmədovun “Kor sürücü”, “İstirahət”, “Vəzifə”, B.Qasımxanlının “Tribuna”, “Zibil üçün”, “Təmir”, “Yollar”, S.Soltanlının “Danışıqlar masası”, “Ölüm qabağı”, “Özgəsinin bağı” və digər karikaturaları mövzu aktuallığı, orijinal rəssam tapıntısı, müasir yanaşma tərzi, tənqidin hədəfə çatdırılmasında lakonikliyi ilə diqqət çəkir (şək.6).

Hələ 80-ci illərdən dövri mətbuat səhifələrində özünün “sözsüz” karikaturaları ilə çıxış edən Bulud Qasımovun müəllifi olduğu əsərlərin əksəriyyəti tamaşaçıya müşayiətedici mətnsiz təqdim olunurdu. Öz yaradıcılığında qrafik təsvir vasitələrindən məharətlə istifadə edən rəssam, lokal quruluşlu kompozisiyalarına bir neçə fiqur, element və ya uğurlu tapılan detal əlavə etməklə, əsas ideyanı tamaşaçıya sözsüz çatdırmağa müvəffəq olurdu. Bu karikaturalarda əlavə sözə və ya mətnə heç bir ehtiyac qalmırdı. Belə karikaturalar sırasında ədalət tərəzisini hörümçək toru basmış “Femida” ilahəsinə parodiya, özündə eyham, tənə və ironiya daşıyan “Çadralı qadın” və ya həkimlər arasında xəstə uğrunda gedən əbədi “mübarizə” təsvir olunmuş “Qadın məsləhətxanasında” adlı karikaturaları diqqət çəkir [8, s.225; 5, s.60] (şək.7).

Özünəməxsus rəssam dəst-xətti ilə seçilən, tanınmış qrafika ustası Vəfa Cəfərovanın bu gün də öz aktuallığını və müasirliyini qoruyub saxlamış “Görüş” adlı karikaturasında süni təbəssümlə maskalanmış iki personajın görüş səhnəsi təsvir olunmuşdur. Bu karikaturada əsl simalarını maska arxasında gizlədən, bir-birini gülərüzlə, xoş sözlərlə salamlayan hər iki “qəhrəman”ın, əslində, maska arxasında öz qəzəblərini və nifrətini gizlətməyə cəhd etdiklərini aydın görmək olar. Öz milli kaloriti, fərdi xüsusiyyətləri ilə yadda qalan, sənətkarlıq baxımından yüksək bədii səviyyəsi ilə seçilən əsərlərin müəllifi kimi tanınan V.Cəfərovanın bu karikaturasında da yaratdığı personajlar öz milli koloriti ilə diqqət çəkir [11, s.1; 9, s.46] (şək.8).

Müəllifi olduğu karikaturalarda, əsasən, sosial problemləri gündəmə gətirən Tofiq Məmmədov hədəf seçdiyi obyektinə qarşı barışmaz mövqeyi ilə seçilən rəssamlardandır. Onun neft mövzusuna həsr etdiyi “Neft-Petrol” əsərini “sözsüz” karikatura adlandıra bilərik. İki kadrdan ibarət olan bu karikaturanın birinci hissəsində milli geyimdə təsvir olunmuş, şalvarının dizləri cırıq, ayağı yalın, yazıq simalı fəhlənin başı üzərində sovet Azərbaycanının bayrağını uca tutaraq “iri addımlarla” irəliləməsini görürük. Karikaturanın ikinci hissəsində isə rəssam, kompozisiyanın mərkəzi fiquru olan fəhləni olduğu kimi saxlamaqla, “Neft” sözünü “Petrol” sözü ilə, ikirəngli sovet Azərbaycanı bayrağını isə üçrəngli müstəqil Azərbaycan bayrağı ilə əvəz etmişdir. Karikaturanın süjetindən aydın olur ki, fəhlə üçün sözlərin və ya atributların dəyişməsi onun sosial vəziyyətinə təsir etməmişdir. Acı gülüşlə aşılanmış bu karikaturanın ideya məzmunu və çoxmənalı süjeti aydın və anlaşıqlı tərzdə işləndiyindən rəssam, karikatu-

ranın ideyasını lakonik şəkildə tamaşaçıya çatdıra bilmişdir (şək.9).

90-cı illərdə respublika mətbuatında öz kəskin tənqidi süjetli karikaturaları ilə çıxış edən rəssamlardan biri də Rəşid Şərifdir. Onun mətbuat, söz və fikir azadlığı mövzusunda işlədiyi karikaturasında üzünə əleyhqaz taxaraq, qəzet oxuyan insan təsvir olunmuşdur. Bu əsərində "sarı" və ya "bulvar" mətbuatına qarşı çıxan rəssam qəzetlərdə dərc edilən yalan, böhtan və iftiraların natəmiz qoxusunu udmaq istəməyən oxucu ideyasını irəli sürür. Bu karikaturada müəllif, mətbuat səhifələrində baş alıb gedən savadsızlıq, çap edilən materialların səviyyəsinin aşağı olması kimi neqativ hallara qarşı öz barışmaz mövqeyini göstərə bilmişdir. Tamaşaçı tərəfindən sözsüz də başa düşülən bu əsər rəssamın maraqlı tapıntısı kimi diqqət çəkir (şək.10).

Yaradıcılığında "sözsüz" karikaturalara geniş yer verən tanınmış karikaturaçı rəssam B.Hacızadənin "Sədaqətli dost", "Küsmüş mələk", "Darvin", "Karlo ata", "Son ana qədər", "Azarkeşlər", "Səhnə", "Mətbuat işçiləri", "Eşidilməyən musiqi", "Çıxış yolu", "Lombartda", "Alicənablıq" və digər əsərlərinin hər biri mötəbər beynəlxalq karikatura müsabiqələrində çoxsaylı mükafatlara layiq görülmüşdür [3, s.16; s.15] (şək.11).

Rəssamın məşhur karikaturalarından biri olan "Sədaqət" adlı əsəri, 2009-cu ildə ABŞ-da keçirilmiş dünyanın ən mötəbər yarışmalardan biri olan "Devenport" beynəlxalq karikatura müsabiqəsində qızıl medala layiq görülmüşdür [12, s.12]. Bu karikaturanın süjet xəttinə görə həyatın haqsızlıqlarından, insanların riyakarlığından, bəlkə də səfalətdən və ya xəyanətindən zara gəlmiş bir insan intihar etməyə qərar verir. Rəssam, boğazına kəndir keçirib özünü asmağa hazır olan insanın ayağının altında stul və ya hər hansı bir əşya əvəzinə, onun sədaqətli dostunu – itini təsvir etmişdir. Rəsmdən aydın görünür ki, dünyadan bezmiş bu insanı sözün hər mənasında həyata bağlayan yeganə varlıq onun itidir. Ömrünün son anında, son nəfəsində, bəlkə də müəyyən tərəddüdlərinə son qoymaq məqsədilə öz yeganə sədaqətli dostunu yoxlamaq qərarına gələn insan əlindəki sümüyü itə atır. Sədaqət və etibar simvolu olan itin, onu həyata bağlayan yeganə canlının, onu atıb sümük arxası ilə qaçmayacağına ümid edən qəhrəman, təəssüf ki, bu dəfə də yanılır… Bir parça sümüyü görən it dərhal öz sahibini qoyub, yeməyin arxasınca qaçır və əlbəttə ki, bununla da kəndir çəkilir və əsərin qəhrəmanı ölür. Bəlkə də həyatda, müasir dövrümüzdə tez- tez rastlaşdığımız, bəlkə də artıq alışdığımız xəyanət mövzusuna rəssam acı gülüş qataraq, bu səhnəni tamaşaçıya çox fərqli bir vəziyyətdə və gözlənilməz formada təqdim etmişdir (şək.12).

Keçən əsrin 80-90-cı illərində karikatura ustalarımızın müxtəlif mövzulu karikaturaları mövzu aktuallığı, eyham və sarkazmın çoxcəhətliyi, üslub və yanaşma tərzində yeniləşmə, mətləblərin üzə çıxarılmasında şərtilik prinsipinə əsaslandığına görə bu gün də müasirliyini qoruyub saxlayır. Tamaşaçı-oxucu tərəfindən sözsüz və mətnsiz də başa düşülən bu karikaturaların hər biri mövzu müxtəlifliyi, satiranın kəsəri və rəssamın problemi düzgün dəyərləndirməsi baxımından maraq doğurur. Rəssamlarımız hər bir personajı, onun xarakterik cizgilərini dəqiq işləyir, şərti ifadə vasitələrinin köməyi ilə toxunduqları problemin dərin köklərini tamaşaçıya çatdırmağa müvəffəq olurlar.

Rəssamlarımızın məhsuldar və səmərəli fəaliyyətinin nəticəsi olaraq "sözsüz" karikatura Azərbaycan karikatura sənətinin tərkib hissəsi kimi intensiv şəkildə inkişaf edərək, bu sahədə dərin bədii ənənələrə malik olmasını, müasir dünya karikaturasının inkişafına öz layiqli töhfələrini vermək bacarığını nümayiş etdirmişdir. Müasir dövrümüzdə özündə beynəlxalq "qrafik dil" xüsusiyyətlərini əks etdirən "sözsüz" karikatura dünya karikatura sənətinin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Bu haqda professor B.Hacızadə yazır: "Rəssamlarımızın yüksək intellektual və hazırlıqlı oxucu-tamaşaçı üçün nəzərdə tutulmuş "sözsüz" karikaturaları heç bir sərhəd bilməyən, "beynəlxalq dildə" danışan təsviri sənət nümunələri olaraq müxtəlif ölkələrdə keçirilən beynəlxalq karikatura sərgilərində və müsabiqələrində də uğurla nümayiş olunur və yüksək mükafatlara layiq görülür" [7, s.271].

Müəllifin fikrində çox böyük həqiqət vardır. Doğrudan da "beynəlxalq dildə" danışan bu karikaturalar sərhədləri aşır, mövcud və bəlli yanaşmaları qəbul etmir, yeni formalar, yeni baxış diktə edirdi. "Sözsüz" karikatura, həqiqətən də,

yeni bədii yanaşma, yeni baxış, yeni ifadə tərzi kimi qəbul olunurdu. Qeyd etmək lazımdır ki, "sözsüz" karikaturanın geniş yayılması və populyarlaşması nəticəsində təşkil olunan, beynəlxalq karikatura sərgiləri və müsabiqələrinin sayı hiss olunacaq dərəcədə artmış, karikatura albomları və kataloqlarının nəşri sürətlənmişdir. Bu isə ölkələr və xalqlar arasında yeni bədii-mədəni əlaqələrin yaradılmasına, eləcə də karikatura janrının inkişafının sürətlənməsinə xidmət edən əsas amillərdən biridir. İrqindən, dinindən və dilindən asılı olmayaraq hər kəsin asanlıqla başa düşə biləcəyi "sözsüz" karikaturanı əksər hallarda beynəlxalq dildə danışan, sərhəd bilməyən sənət növü də adlandırırlar.

Beynəlxalq dildə danışan "Sözsüz" karikaturanın "qrafik dil" xüsusiyyətlərinə bütünlüklə yiyələnən karikaturaçı rəssamlarımız ABŞ, Çin, Kuba , Suriya, İsrail, Avropa ölkələrində, qonşu İran, Rusiya və Türkiyədə keçirilən beynəlxalq karikatura müsabiqələrində xüsusi diplomlara və mükafatlara layiq görülür, bu mötəbər tədbirlərdə ölkəmizi layiqincə təmsil edirdilər.

Azərbaycan rəssamlarından Kirman Abdinin 1988-ci ildə Türkiyədə keçirilən beynəlxalq müsabiqədə III yerə, 2000-ci ildə isə İranda təşkil olunmuş beynəlxalq karikatura yarışmasında "Uğur" mükafatına layiq görülməsi, 1999-cu ildə Türkiyədə keçirilən "Aydın Doğan" Beynəlxalq karikatura müsabiqəsinin ən yaxşı əsərlərdən ibarət kataloqunda R.Şərifin müəllifi olduğu karikaturanın yer alması, 2000-ci ildə H.Nəsiroğlunun "Aydın Doğan" beynəlxalq karikatura müsabiqəsində xüsusi mükafata layiq görülməsi, S.Soltanlının 2001-ci ildə Türkiyədə keçirilən "Fair Play" müsabiqəsində I yerə, Misirdə keçirilən "EFRAS-1" beynəlxalq karikatura müsabiqəsində II yerə layiq görülməsi rəssamlarımızın beynəlxalq karikatura müsabiqələrindəki ilk uğurları idi.

2003-cü ildə S.Nəsirovun Tayvanda keçirilən beynəlxalq karikatura müsabiqəsində II yerə, 2009-cu ildə Braziliyada I yerə, 2011-ci ildə Koreyada bürünc medala, B.Hacızadənin 2005-ci ildə Çində "Lenq Mu" beynəlxalq karikatura müsabiqəsində qızıl medala, İsraildə keçirilən XI beynəlxalq karikatura müsabiqəsində xüsusi mükafata, 2007-ci ildə Kubada I yerə, 2009-cu ildə ABŞ-da "Devenport" beynəlxalq karikatura müsabiqəsində I yerə, 2015-ci ildə Suriyada qızıl medala, E.Mirzəyevin 2007-ci ildə İsraildə YUNESKO-nun xüsusi mükafatına, S.Soltanlının 2017-ci ildə İspaniyada II yerə, Türkiyədə bürünc medala layiq görülməsi Azərbaycan karikaturasının dünya karikatura ailəsinin bir hissəsinə çevrilməsi, milli karikatura sənətinin beynəlxalq karikatura aləmində tanınıb, qəbul olunmasının bariz nümunəsidir [15; 2, s.22; 1, s.17] (şək.13). Rəssamlarımızın karikatura sahəsində qazandıqları bu nailiyyətlərini, bu uğurlarını beynəlxalq dildə danışan "sözsüz" karikaturanın ölkəmizdə inkişafı ilə birbaşa əlaqələndirmək olar.

Azərbaycan Karikaturaçı Rəssamlar Birliyinin sədri Bayram Hacızadə müsahibələrinin birində bu haqda deyir: "Son illər Azərbaycan karikaturaçı rəssamları beynəlxalq karikatura müsabiqələrində uğurlar qazanır, ölkəmizi mötəbər tədbirlərdə layiqincə təmsil edirlər. Onların əsərləri qızıl, gümüş, bürünc medallara, xüsusi mükafatlara və diplomlara layiq görülür. Rəssamlarımızın əsərləri müsabiqələrin seçilmiş ən yaxşı karikaturalardan ibarət kataloqlara daxil edilir ki, bu da, əslində, çox yüksək göstəricidir.

Əgər ABŞ-da təşkil olunan nüfuzlu beynəlxalq karikatura müsabiqəsində I və II yerləri azərbaycanlı karikaturaçı tutursa, Kubada keçirilən karikatura festivalında I yer və müsabiqənin xüsusi mükafatını azərbaycanlı karikaturaçılar qazanırsa, Çində keçirilən 80 ölkədən minlərlə rəssamın qatıldığı beynəlxalq karikatura müsabiqəsində qızıl və gümüş mükafatlara bizim rəssamlar layiq görülürsə, əlbəttə ki, bu bizim uğurumuzdur. Bu müasir Azərbaycan karikaturasının uğurudur!" [15]

Karikaturaçı-rəssamlarımızın son illər xususi fəallığını, məhsuldar və səmərəli fəaliyyətini, onların beynəlxalq müsabiqələrdə və sərgilərdə qazandıqları uğurları yüksək qiymətləndirən Azərbaycanın Xalq rəssamı Altay Hacıyev bu haqda yazır: "Karikatura demokratik cəmiyyətin başlıca göstəricilərindən biridir. Müstəqilliyimizin ilk illərindən müraciət etdiyimiz demokratik formalardan biri də məhz karikatura olmuşdur. Son illər Azərbaycan Karikaturaçı Rəssamlar Birliyi tərəfindən müasir Azərbaycan karikatura sənətinin beynəlxalq aləmdə tanınması və təbliği istiqamətində mühüm işlər

görülmüş, əhəmiyyətli addımlar atılmışdır. Biz uzun illər təbliğat sahəsində çalışan rəssam kimi bu işlərin nə qədər mühüm əhəmiyyət daşıdığını gözəl anlayırıq və onların fəaliyyətini alqışlayırıq. Karikaturaçı rəssamlarımızın hər bir uğurunu müasir Azərbaycan karikaturasının uğuru kimi qəbul edirik və buna sevinirik" [15].

Həqiqətən də son illər respublikada və xaricdə təşkil olunan beynəlxalq müsabiqələr, sərgilər, ilk növbədə, milli karikatura ənənələrini yaşatmaq bu sənət növünün Azərbaycanda və ölkədən kənar təbliği istiqamətində atılan mühüm və əhəmiyyətli addımlar kimi qiymətləndirilməlidir. Təşkil olunan hər bir sərgi bu janrın cəmiyyətdə, xüsusilə də gənclər arasında tanınmasında mühüm əhəmiyyət daşıyır və nəticə etibarilə rəssamlarımızın yaradıcılıq potensialı və imkanlarının genişlənməsinə xidmət edir.

## Nəticə / *Conclusion*

Araşdırdığımız dövr və tədqiqata cəlb olunan materialların təhlili, bizə belə deməyə əsas verir ki, "sözsüz" karikatura adlandırdığımız yeni cərəyan karikaturaçı rəssamlarımızın yaradıcılığına ciddi şəkildə təsir etmiş, yeni ruhlu, müasir məzmunlu əsərlərin meydana çıxmasına zəmin yaratmışdır. Dünyada baş verən, ölkənin və cəmiyyətin yaşadığı siyasi, sosial, iqtisadi və mədəni problemlər karikatura ustalarımızın yaratdığı əsərlərin mövzu və forma biçiminə təsir etmiş, satirik qrafikanın ümumi inkişaf istiqamətini və bədii təzahür formalarını müəyyənləşdirmişdir. Araşdırdığımız dövr rəssamlarımızın yaradıcılığında mövzu seçimində sərbəstlik və müstəqillik, yeni və müasir yanaşma, mütərəqqi dünya karikaturasının nailiyyətlərindən bəhrələnmə, milli ənənələrə əsaslanan klassik üslub xüsusiyyətlərinin işlənilməsi ilə yadda qalmışdır.

## Ədəbiyyat / *References*


1. "Biz və karikatura" satira-karikatura jurnalı. – Bakı: Çaşıoğlu, 2006, № 1.
2. "Biz və karikatura" satira-karikatura jurnalı. – Bakı: Çaşıoğlu, 2006, № 3.
3. Əliyev, Z. Azərbaycan karikaturaçı rəssamları. Bayram Hacızadə. – Bakı: Azəri-Dizayn, 2018.
4. Hacıyev, P. Nəcəfqulu İsmayılov (rəngkarlıq, qrafika, karikatura, şarjlar). – Bakı: İşıq, 1979.
5. Hacızadə, B. Azərbaycan karikaturaçı rəssamları. – Bakı: Çaşıoğlu, 2005.
6. Hacızadə, B. Azərbaycanda karikaturanın inkişafı. – Bakı: Səda, 2008.
7. Hacızadə, B. "Kirpi"nin rəssamları (1952-1969-cu illər), I cild. – Bakı: Bestrack, 2017.
8. Hacızadə, B. "Kirpi"nin rəssamları (1980-1991-ci illər), III cild. – Bakı: Bestrack, 2017.
9. Hacızadə, B. Müasir Azərbaycan Karikaturası. – Bakı: Şərq-Qərb, 2007.
10. "Kirpi" satirik jurnalı. – Bakı: Kommunist, 1964, № 17.
11. "Kirpi" satirik jurnalı. – Bakı: Kommunist, 1984, № 10.
12. Məhərrəmli, Q. "Azərbaycanlı rəssamın ABŞ zəfəri", "Zaman" qəzeti. – Bakı: Zaman-Azər, 2009, № 1-2.
13. Nəcəfov, M. Azərbaycanın karikaturaçı rəssamları. – Bakı: İşıq, 1972.
14. Туновский, Р. Мастера советской карикатуры // "Без слов", Вып. I. – Москва: Советский художник, 1976.
15. http://www.azercartoon.com

# «БЕССЛОВЕСНЫЕ» КАРИКАТУРЫ НА МЕЖДУНАРОДНОМ ЯЗЫКЕ В ТВОРЧЕСТВЕ АЗЕРБАЙДЖАНСКИХ ХУДОЖНИКОВ

**Камаля Мустафаева**
Азербайджанская Государственная Академия художеств. Азербайджан.
E-mail: kamalamustafazadeh@gmail.com

**Резюме.** В статье рассматриваются «бессловесные» карикатуры, говорящие на интернациональном языке, разработанные нашими художниками с высоким профессионализмом, анализируется объект критики карикатур, делаются логические выводы на основе сюжетной линии. Обсуждаются место и сущность «бессловесных» карикатур в творчестве азербайджанских художников, которые представляют собой новое и современное направление, говорящее на интернациональном языке и предназначенное в основном для подготовленного читателя. В статье говорится о разнообразии тематики «бессловесных» карикатур художников-карикатуристов, публикуемых в республиканских периодических изданиях, а также экспонируемых на международных конкурсах и выставках карикатуры. Отмечается эффективная деятельность художников в направлении освещения различных проблем, существующих в обществе. В статье в сравнении анализируется многогранное творчество художников, их «бессловесные» карикатуры и сатирические картины различной тематики.

**Ключевые слова:** карикатура, художник, гротеск, творчество, течение, сатира, юмор, интернациональность